# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 316** **Bakı şəhəri, 26 oktyabr 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 385 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mediasiya prosesinin həyata keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 385 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1539; 2020, № 9, maddələr 1220, 1229; 2021, № 3, maddə 292) ilə təsdiq edilmiş "Mediasiya prosesinin həyata keçirilməsi Qaydası"nın 11-ci hissə-sində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 11.3-1-ci bənd əlavə edilsin:

"11.3-1. Uşağın böyüməsinə, inkişafına və digər maraqlarına toxunan barışıq sazişi mediator tərəfindən yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarına təqdim edilməlidir.".

**2.** 11.4-cü bənddə "qüvvədə olan qanunvericiliyə" sözləri "qanuna" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti.- 2021.- 29 oktyabr.- S.2.